

ISSN-0207-4710

# HƏZRƏTİ ƏLİNİN KƏLAMLARINDAN

* Yalan olan yerdə məhəbbət olmaz.

* İntiqam almaqla ağalıq tutmaz. Böyük kimsə müqəssirin günahından keçməyi bacarmalıdır.

* Məsləhət etməyən kimsə mətləbinə nail olmaz.

* Yalançı şəxsin rəhm və mürvəti olmaz.

* İslamdan yüksək şərəf yoxdur.

* Pəhrizkarlıqdan yaxşı pənahgah yoxdur.

* Salamatlıq ən gözəl geyimdir.

* Nadanlıqdan betər dərd yoxdur.

*TÜRK DÜNYASININ BÖYÜK OĞULLARI.*

# *Qılınc ƏLİ PAŞA* *1500—1587*

Qılınc Əli Paşa böyük türk admiralıdır. O, 1551-ci ildə dəniz kapitanı olmuş, 1556-cı ildə admiral rütbəsi ilə İzmirə vali tə'yin edilmişdir. 1565-ci ildə Malta döyüşü başlayan zaman İskəndəriyyənin valisi idi. Bu döyüşdə şəhid olan Turqut rəisin yerinə Bəriyyə bəylərbəyliyi rütbəsi ilə Trablüsqərbin baş valisi olmuşdur.

15 iyul 1570-ci ildə Malta döyüşündə qələbə çalıb Kipri tutduqdan sonra Əlcəzairin baş valisi olmuşdur. "Uluq Əli" kimi tanınırdı. II Səlim onun adını dəyişib "Qılınc Əli" qoymuşdu. Ona cəvahirlə naxışlanmış bir qılınc bağışlamışdı.

1573 və 1574-cü illərdə İtaliya və İspaniya ətraflarına, həmçinin Kiritə zərbələr vurmuş, Tunisi Barbarosdan sonra ikinci dəfə ələ keçirmişdir. 1582-ci ildə Krıma getmişdir. On beş illik admirallığı dövründə türk donanmasının şöhrətini bütün dünyaya yaymışdır. 27 iyun 1587-ci ildə İstanbulda ölmüşdür. Qılınc Əli Paşa Topxanə məscidinin yanında dəfn edilmişdir.

# TƏZƏ İL

Sözləri *Rafiq YUSİFOĞLUNUN* Musiqisi *Cavanşir QULİYEVİNDİR*

Kaman gətir, saz gətir,
Şirin bir avaz gətir.
Dön zəfərlər ilinə,
Ürəklərə yaz gətir.

Nəqarat

Təzə il, ay təzə il,
Gəlməyəsən gözə il!
Uğurlu qədəminlə
Ömrümüzü bəzə il!

Tez gəl, bizi sevindir,
Yolu, izi sevindir.
Doğmaları gözləyən
Dağı, düzü sevindir.

Nəqarat

Üzlərə işıq gətir,
Gözlərə işıq gətir.
Kül altında uyuyan
Gözlərə işıq gətir.

Nəqarat

Sevincdən əsir dilim,
Xoş gördük, təzə ilim.
Gəlişinlə yurdumdan
Dərd itsin ilim-ilim.

Nəqarət

Yaxamı külək açsın,
Qədəmin ürək açsın.
Sevənlərin qəlbində
Arzular çiçək açsın.

Nəqarat

*Əziz balalar, təzə, 1999-cu iliniz mübarək olsun!*

Rəssam *İlqar MEHDİYEV*



Sumqayıtdakı N.Gəncəvi adına litseyin sinif müəllimi **Məhbubə Əliyeva** dərs zamanı.